**Dövlət başçısı cənab İlham Əliyevlə Ağdam görüşündən qayıtdıqdan sonra ilk təəssüratlarımı ağsaqqal dostum və mogikan şairimiz Nəriman Həsənzadə ilə bölüşdüm.**

**Xalq şairi ürək sözlərini poetik qələmi ilə şeirə çevirərək gözəl bir nümunə yaratdı.**

**Həmin şeiri də hörmətli oxucularımızın diqqətinə təqdim edirik.**

# ƏSRİN NƏĞMƏSİ

**Müzəffər Komandan inad elədi,**
**Bütün Qarabağı azad elədi.**

**Mehriban xanımdan gələn nümunə,**
**Muğamı qaytardı öz sahibinə.**

**Hələ Qarabağı görməyən gənclər,**
**Gedib Qarabağda cihad etdilər.**

**Şeirimiz, sözümüz, musiqimiz də**
**səsləndi,**
**dolaşdıq dünyanı biz də.**

**Elə ki Şuşanı azad elədi,**
**Qəmli könülləri o şad elədi.**

**"Əzizdir Atamın hər vəsiyyəti,**
**Yerinə yetirdim -**
**O pak niyyəti"!**
**Şanlı tarixidir bir şah əsərin,**
**Əziz xatirəsi Ulu Öndərin.**

**İndi sevdasıdır Şuşa hər kəsin,**
**Cənab Prezident bir nitq söyləsin.**

**Dünya qulaq assın ona yenidən,**
**Sənindir bu şöhrət, bu şərəf, Vətən!**

**Vətən, qoy sevinsin qızın və oğlun,**
**Məhv etdi düşməni "dəmir yumruğ"un!**

**İndi hər könüldə yerin var, inan,**
**Xalqın sevimlisi, qalib Komandan!**

**Ətrim bu torpaqdı,**
**Ürəkdi, candı.**
**Havam - o havadı,**
**Səsim o səsdi,**
**Qarabağ Azərbaycandır!**

***Nəriman HƏSƏNZADƏ,***
***Azərbaycanın Xalq şairi***

Azərbaycan.- 2025.- 30 may (№111).- S.13.